

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (21.564)

19 avqust 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Kitabxana işi ilə bağlı zona müşavirəsi keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ordubad şəhərində kitabxana işçilərinin növbəti zona müşavirəsi keçirilib. Müşavirədə Ordubad və Culfa rayonlarının mərkəzləşdirilmiş kitabxana sistemlərinin, filial-kitabxanaların əməkdaşları iştirak ediblər.*

Müşavirəni giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, zəngin mədəniyyətə və qədim tarixə malik olan Naxçıvan torpağı Azərbaycanda maarifçiliyin və kitab mədəniyyətinin inkişafına mühüm töhfələr verib. Tarixdən məlumdur ki, kitab mədəniyyətinin inkişafında kitabxanalar özünəməxsus əhəmiyyət daşıyıb. Eyni zamanda görkəmli ziyalılarımızın şəxsi kitabxanaları da xalqın maariflənməsində xüsusi rol oynayıb.

Müstəqillik illərində ölkəmizdə gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərib. Bunu muxtar respublikanın timsalında da görmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2012-ci il tarixli Sərəncamı ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi, burada elektron kitabxananın fəaliyyətə başlaması belə mədəniyyət müəssisələrinə hərtərəfli qayğının ifadəsidir.

Qeyd olunub ki, hazırda muxtar respublikamızda 2 muxtar respublika tabeli kitabxana, 8 Mərkəzləşdirilmiş Kitabxana Sistemi və onların tabeliyində 224 filial-kitabxana fəaliyyət göstərir. Son illər muxtar respublikanın rayon mərkəzlərində və 100-dən çox kənddə kitabxanalar üçün müasir şərait yaradılıb. 2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, latın qrafikası ilə nəşr edilmiş kitablar kitabxanalara hədiyyə olunur. 2015-ci ilin statistikasına əsasən, muxtar respublikamızda kütləvi kitabxanaların sayı 234 olub. Bu kitabxanalarda kitab və jurnalların sayı 2 milyon 126 min nüsxədən çoxdur. Ötən ilin yeddi ayı ərzində nazirliyin sistemində daxil olan kitabxanalara 181 adda 4550 nüsxə çap məmulatı daxil olub, yeni oxucu sayı 1424 nəfər, oxucu gəlişi 36630 nəfər, kitab verilişi 441043 çap məhsulu təşkil edib. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elektron kitabxanasından uzaq məsafədən (virtual xidmət) 2360, lokal şəbəkədən isə 974 oxucu olmaqla, 3334 oxucu istifadə edib.



Nazirliyin 2016-cı il üçün iş planına əsasən, kitabxana xidmətinin yüksəldilməsi ilə əlaqədar kitabxana günlərinin, mütaliə, həmçinin nağıl günlərinin, kitab müzakirələrinin keçirilməsi diqqət mərkəzində saxlanılıb. Hər həftənin II günü keçirilən "Nağıl günü"ndə A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası Naxçıvan şəhərində, rayon (şəhər) MKS-nin uşaq şöbələri isə rayonlarda fəaliyyət göstərən uşaq bağçalarında olub, müxtəlif nağılların ucadan oxularını keçirib, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının və Naxçıvan Dövlət Uşaq Teatrının kollektivlərinin müxtəlif tamaşalardan təqdim etdikləri parçalar, eləcə də nümayiş olunan cizgi filmləri azyaşlılar tərəfindən maraqla qarşılanıb.

Vurğulanıb ki, "Mütaliə günü" layihəsi çərçivəsində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və rayon (şəhər) MKS tərəfindən Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında fəaliyyət göstərən orta ümumtəhsil məktəblərində müxtəlif tədbirlər keçirilib. Ötən yeddi ay ərzində "Nağıl günü" ilə əlaqədar 202, "Mütaliə günü" ilə əlaqədar 65 tədbir təşkil edilib. Ümumilikdə isə son 7 ay ərzində muxtar respublikanın kitabxanalarında, eləcə də rayon (şəhər) MKS-də 32 görkəmli şəxsiyyətlə bağlı 104 yubiley tədbiri, 21 ədəbi-bədii gecə, 35 oxucu konfransı, 25-dək kitab müzakirəsi, 19 yığıncaq, 39 səyyari sərgidən ibarət olmaqla, 160-dan çox mədəni-kütləvi tədbir keçirilib.

Bu dövrdə "Kitabxana günü"nün keçirilməsi diqqət mərkəzində saxlanılıb, kitabxana işçilərinin maariflənddirilməsi məqsədilə müzakirə üçün tövsiyə olunan mövzulara əsasən maarifləndirici tədbirlər keçirilib, həmçinin oxucuların kitabxanalara cəlb olunması məqsədilə 70 tədbir təşkil olunub, sərgilər nümayiş etdirilib.

Qeyd olunub ki, keçirilən zona müşavirəsinin əsas məqsədi kitabxana işi ilə bağlı problemləri müzakirə etmək, işdə olan nöqsanları aradan qaldırmaq, kitabxana işində çalışan işçilərə elmi-metodik kömək göstərməkdən ibarətdir. Asudə vaxtın düzgün qurulmasında kitabxanaların rolu, belə mədəniyyət müəssisələrinə oxucu cəlbi, kitab müzakirələrinin, mütaliə, kitabxana və nağıl günlərinin təşkili, mütaliə mədəniyyəti, kitabxana-oxucu münasibətləri, kitabxana işində qarşıya çıxan çətinliklər, kitabxana xidməti və bir çox məsələləri ətraflı təhlil etmək bütün kitabxanaların əməkdaşlarını düşündürməlidir.

Bildirilib ki, kitabxana işçiləri sağlamlıq imkanları məhdud və ahıl insanlar üçün səyyari kitabxana xidməti göstərməli, kitabxana və mütaliə günlərinin yüksək səviyyədə keçirilməsinə diqqət yetirməlidirlər. Kitabxanalara təcrübəli kadrlar cəlb edilməli və oxuculara xidmət işi daha da yaxşılaşdırılmalıdır. Kitabxanalarda biblioqrafiyalar və kataloqlar sistemli işlənilməlidir. Kitabxana əməkdaşları üçün bundan sonra da nazirlik tərəfindən mütəmadi seminar-treninqlər keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işi üzrə aparıcı məsləhətçisi Aygün Hüseynovanın, Ordubad və Culfa Rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri Azər Əliyevin və Füzuli Hüseynlinin mövzu ilə bağlı çıxışları olub.

Müşavirədə kitabxanalarda işin canlandırılması üçün təcrübəli kitabxana işçilərinin təklifləri dinlənilib və tədbir iştirakçılarının sualları cavablandırılıb.

Kitabxana işçilərinin zona müşavirəsinə mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## İyul ayında Naxçıvan Beynəlxalq Hava Limanının xidmətlərindən 32 mindən artıq sərnişin istifadə etmişdir




Muxtar respublikada hava nəqliyyatında xidmətin düzgün təşkili, sərnişinlərin rahatlığı və təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. İyul ayında yerli hava xətti ilə 31 min 471 sərnişin, 461 min 712 kiloqram baqaj, 25 min 818 kiloqram yük və 1678,65 kiloqram poçt daşınmışdır. Beynəlxalq hava xətləri üzrə isə Naxçıvan-Moskva reysi ilə 496 sərnişin, 4 min 349 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 485 sərnişin və 5 min 840 kiloqram baqaj daşınmışdır.

Ay ərzində teleskopik traplara, nəzarət müşahidə kameralarına, X-Ray avadanlıqları və kompüterlərə texniki baxış keçirilmiş, nasazlıqlar vaxtında aradan qaldırılmışdır. Həmçinin aerodrom ərazisində cari təmir işləri görülmüş, elektrik, işıqlandırma, rabitə, soyutma və havalandırma sistemlərinə texniki qulluq göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlar mütəmadi yoxlanılmış, hava gəmilərinə texniki baxış keçirilmiş, uçuşların vaxtında və təhlükəsiz təşkili təmin edilmişdir. Bundan başqa, istismarda olan bütün növ xidməti avtomobillər və texnikaların işlək vəziyyətdə olması diqqətdə saxlanılmışdır.

Hava limanı əməkdaşlarının peşə bacarığının artırılması sahəsində görülən işlər ötən ay da davam etdirilmiş, Aviasiya Təhlükəsizlik Xidmətinin mütəxəssisləri Milli Aviasiya Akademiyasının Aviasiya Personalının Hazırlığı Mərkəzində təşkil olunmuş ixtisasartırma kurslarına göndərilmişdir.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Günəş və su elektrik stansiyaları muxtar respublikanın enerji təminatında mühüm yer tutur

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin təmin olunması sahəsində kompleks tədbirlər görülür, alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə olunur, işləndicilərə fasiləsiz və keyfiyyətli elektrik enerjisi verilir. İyul ayında muxtar respublikanın elektrik şəbəkələrinə buraxılan enerjinin 56,9 faizi su elektrik stansiyalarında, 7,2 faizi isə Günəş elektrik stansiyasında istehsal olunmuşdur.

Ötən ay elektrik stansiyalarında, yüksək və alçaq gərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılmış, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlər görülmüşdür. Belə ki, qeyd olunan dövrdə muxtar respublikanın şəhər və kəndlərində 3 yeni transformator yarımstansiyası quraşdırılmış, 5 kilometr uzunluğunda elektrik verilişi xətti çəkilmiş, 1 kilometr uzunluğunda hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində isə 12 transformator təmir edilərək şəbəkələrə qaytarılmışdır.



Naxçıvan şəhərində smartkarttipli sayğacların qoyulması işləri də bu dövrdə davam etdirilmiş, 690 ədəd belə sayğac quraşdırılmış, yaşayış məntəqələrində elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün reydlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülür.

## Muxtar respublikanın yaşayış məntəqələri dayanıqlı mavi yanacaqla təmin olunur

İyul ayında da istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi diqqətdə saxlanılmış, 138 müxtəlif təyinatlı obyektlərə yeni qaz xətləri çəkilmiş, yenidənqurma və abadlaşdırma işlərinin aparılması ilə əlaqədar olaraq 24 min paqonometrə yaxın müxtəlif diametrli boru istifadə edilmişdir.

İstehsalat təlimatına və tərtib edilmiş tədbirlər planına əsasən, qaz təsərrüfatında istismarda olan avtomat qazpaylayıcı stansiyalarda təzyiq tənzimləyicilərinə, ölçü qovşaqlarına, məntəqə, daşıyıcı, paylayıcı qaz kəmərlərinə və onların üzərində olan kranlara, siyirtmələrə, yaşayış məntəqələrində istismar edilən qaz tənzimləyici qurğu və məntəqələrə qrafik üzrə texniki baxış keçirilmişdir. Bu dövrdə qəza dispetçer xidmətləri 1497 sızma aşkarlayaraq aradan qaldırmış, istismara yararsız olan qaz sayğacları yenilənmiş, Naxçıvan şəhərində 241 ədəd smartkarttipli sayğac quraşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın hazırlanması haqqında 2016-cı il 17 mart tarixli Sərəncamının icrası diqqətdə saxlanılmışdır. Belə ki, muxtar respublika ərazisində mövcud olan yüksək və orta təzyiqli magistral qaz kəmərləri, avtomat qazpaylayıcı stansiyalar, aşağı təzyiqli qaz xətləri, həmçinin ehtimal olunan subasma, sürüşmə və dağ uçqunu zonalarında yerləşən magistral qaz kəmərləri və qurğular haqqında zəruri məlumatlar və Naxçıvan Muxtar Respublikasının "Qaz təchizatı xəritəsi" hazırlanaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə təqdim olunmuşdur.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2016-cı ilin iyul ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Ötən dövrdə fondun gəlirləri 6 milyon 236 min 850 manat olmuşdur. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 232 vətəndaşa əmək pensiyası təyin olunmuşdur.

Yeni təyin olunan əmək pensiyaçılarına və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq banklara 3 min plastik kart hazırlanması üçün sifariş verilmiş, 425 nəfər sosial sığorta şəhadətnaməsi ilə təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızda kənd təsərrüfatının digər sahələri ilə yanaşı, heyvandarlığın da inkişafına geniş imkanlar açılıb. Fermer və fərdi sahibkarların təsərrüfatları genişlənib, bəslənilən heyvanların baş sayı artıb. Burada sağlam təsərrüfatların qorunub saxlanılması və daxili bazarın keyfiyyətli ət-süd məhsulları ilə təmin olunmasında baytarlıq xidməti əməkdaşlarının da üzərinə böyük iş düşür. Çünki ev şəraitində bəslənilən heyvan və quşların sağlamlığına nəzarət bilavasitə bu dövlət qurumu tərəfindən həyata keçirilir. Eyni zamanda bazarda satışa çıxarılan və ərzaq zənbilimizin əsasını təşkil edən məhsulların – süd, ət və ət məhsullarının satış üçün yararlı olub-olmamasına cavabdehliyi də məhz baytarlıq xidmətinin əməkdaşları daşıyırlar. Bəs sağlam təsərrüfatların qorunub saxlanılması və daxili bazarın keyfiyyətli ət, süd və süd məhsulları ilə təmin olunması istiqamətində hansı işlər görülür? Bu və ya digər suallara aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilovla görüşüb həmsöhbət olduq:***

# Baytarlıq xidmətinin düzgün təşkili ərzaq təhlükəsizliyinin təminatında mühüm amildir

***– Əvvəlcə Dövlət Baytarlıq Xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verərdiniz.***

– Son illər muxtar respublikamızda baytarlıq xidmətinin daha da yaxşılaşdırılması məqsədilə görülən işlər davamlı xarakter alıb. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin, Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin binaları və Xüsusi təhlükəli xəstəliklərin diaqnostik müayinəsi laboratoriyası yenidən qurulub, laboratoriyada müayinələrin aparılması üçün yeni şöbə yaradılıb və müasir avadanlıqlarla təmin edilib. Həmçinin ali və orta ixtisas təhsili müəssisələrində baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin təcrübə keçmələri üçün tədris mərkəzi kompüter dəstləri və hər cür avadanlıqlarla təmin edilərək istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara həmiliyə verilməsi haqqında” Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kolleci ilə birgə hazırlanmış tədbirlər planına əsasən həmin müəssisələrdə Baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin elmi-nəzəri biliklərinin praktik olaraq möhkəmləndirilməsinə əlverişli şərait yaradılıb. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası əsaslı təmir edilib, dərmanların, biopreparatların saxlanılması üçün yeni bina inşa edilib, burada müasir soyuducu kameralar quraşdırılıb. Şərur, Babək və Sədərək rayonlarında baytarlıq idarələri və laboratoriyaları üçün müasir tələblərə cavab verən yeni binalar tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilib, rayon baytarlıq idarələri və mərkəzi laboratoriya müasir cihaz və avadanlıqlarla təmin olunub. Bu tədbirlər təkcə şəhər və rayon mərkəzləri ilə məhdudlaşmır, ucqar dağ və sərhəd kəndlərini də öz ağuşuna alıb, ümumilikdə, son illər 113 yeni infrastruktur obyekti inşa olunaraq istifadəyə verilib. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilir.

Regionda baytarlıq xidmətinin daha da yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, baytarlıq tədbirlərinin vaxtında və mütəşəkkil aparılması üçün dövlət vəsaiti hesabına dərman preparatları alınaraq muxtar respublikaya gətirilir. Dərman preparatları soyuducu kameralarda müəyyən olunmuş temperaturda saxlanılır, “soyuq zəncir” prinsipinə əməl edilməklə xüsusi maşınlar vasitəsilə rayon baytarlıq idarələrinə çatdırılır. Onu da qeyd edək ki, son illər 7 ədəd dezinfeksiya avtomaşını və 3 ədəd “Niva” markalı minik avtomobili baytarlıq xidməti əməkdaşlarının istifadəsinə verilib. Məqsəd muxtar respublika üzrə epizootik sabitliyi saxlamaqdan, peyvəndləmələrin, baytarlıq diaqnostika müayinələrinin, digər tədbirlərin vaxtında və səmərəli həyata keçirilməsindən ibarətdir.

***– Epizootik sabitliyin saxlanılması istiqamətində hansı işlər görülür?***

– Bu istiqamətdə həyata keçirilən tədbirlər uğurla davam etdirilir, heyvanlarda və quşlarda baş verə biləcək xəstəliklərin qarşısının alınması məqsədilə bütün yaşayış məntəqələrində əhaliyə məxsus mal-qara və ev quşları arasında diaqnostiki, profilaktiki və müalicəvi tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Cari ilin birinci yarısında diaqnostiki olaraq brusellyoz xəstəliyini müayinə məqsədilə 37151 baş iribuynuzlu, 56782 baş xırdabuynuzlu, 7862 baş törədici heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilib. Eyni zamanda manqo xəstəliyinə görə 441 baş təkdırnaqlı, epididimit xəstəliyinə görə 7842 baş törədici heyvanda, vərəm xəstəliyinə görə 26757 baş iribuynuzlu heyvanda diaqnostik müayinələr aparılıb.

Profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara xəstəliyinə qarşı 87659 baş iribuynuzlu, 676199 baş xırdabuynuzlu, 3748 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 98114 baş iribuynuzlu, 433682 baş xırdabuynuzlu, leptospiroz xəstəliyinə qarşı 583 baş iribuynuzlu, emkar xəstəliyinə qarşı 34659 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 59133 baş xırdabuynuzlu heyvanlarda, nyukasl “H” (taun) xəstəliyinə qarşı 457576 baş quşda, la-sota ilə 49185 baş cücədə, çiçək xəstəliyinə qarşı 5485 baş xırdabuynuzlu, brusellyoz xəstəliyinə qarşı 50409 baş xırdabuynuzlu, pasterellyoz xəstəliyinə qarşı 200 baş iribuynuzlu heyvanlarda, 44996 baş quşda, aueski xəstəliyinə qarşı 7735 baş iribuynuzlu, trixofitiya xəstəliyinə qarşı 953 baş iribuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 1605 baş iribuynuzlu heyvanlarda peyvəndləmə tədbirləri aparılıb və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının baytarlıq laboratoriyalarında mal-qara və ev quşlarının parazitlərlə yoluxma dərəcəsini müəyyən etmək üçün 5 adda helmentoloji analizlər aparılıb və əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün baytar sanitar ekspertiza laboratoriyalarında və bakteroloji laboratoriyalarda 2692 ədəd nümunə infeksion xəstəliklərə görə bakterioskopik müayinələrdən keçirilib. Eyni zamanda bütün yaşayış məntəqələrində, o cümlədən mal-qara saxlanılan tövlələrdə, yataq yerlərində, quş damlarında və sair 3091 obyektdə 680963 kvadratmetr sahədə dezinfeksiya tədbirləri həyata keçirilib.

Həyata keçirilən profilaktik tədbirlər öz bəhrəsini verib, mal-qara arasında nə kütləvi, nə də sporadik hallarda hər hansı bir infeksion xəstəliyə rast gəlinməyib.

***– Məhsuldar cins mal-qaranın yetişdirilməsi ilə bağlı nə deyə bilərsiniz?***

– Ölkəmizdə, o cümlədən muxtar respublikamızda yüksək məhsuldar cinslərin yetişdirilməsi, daxili bazarın keyfiyyətli ət və süd məhsulları ilə təmin edilməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilib, Almaniya, Avstriya, Türkiyə və İran İslam Respublikasından 84 baş Şvis, 530 baş Simmental, 1313 baş Holştin Friz cinsi olmaqla, ümumilikdə, 1927 baş damazlıq düyə gətirilib, ayrı-ayrı rayonlarda heyvandarlıqla məşğul olan sahibkarlara lizinq yolu ilə verilib.

Yüksək məhsuldarlığı ilə seçilən cins düyələr ildə orta hesabla 5-6 min, ən yüksək məhsul verəni isə 16-18 min kiloqram süd verir. Südün yağlılığı 3,6 faiz olur. İnəklərin diri çəkisi 550-600 kiloqram, buğaların isə 900-1000 kiloqram olur ki, bunun da ət çıxarı 58-60 faiz təşkil edir. Bu cinsdən olan heyvanlar saxlama və qulluq şəraitinə çox həssasdırlar. Bu məqsədlə hazırlanmış xüsusi tövsiyələr heyvandarlıqla məşğul olan sahibkarlara paylanılıb.

Heyvanlar arasında cins tərkibinin yaxşılaşdırılması, daha məhsuldar ətlik və südlük cinslərin yetişdirilməsi təkcə xaricdən gətirilən mal-qara ilə məhdudlaşmır. Son illər heyvandarlıq təsərrüfatlarında süni mayalanma işinin daha da genişləndirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilib, regionumuzda fəaliyyət göstərən 23 süni mayalanma məntəqəsi lazımi avadanlıq və dərman preparatları ilə təmin olunub. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində süni mayalanma texniklərinin hazırlanması üçün 26 nəfərdən ibarət texnik kursları cəlb olunub. Ümumilikdə, texniklərə 34 motosiklet və 43 süni mayalanma avadanlığı verilib. Cari ilin birinci yarısında 4526 baş mal-qarada süni mayalanma aparılıb, əvvəlki ildə mayalandırılmış mal-qaradan 2031 baş sağlam bala alınıb. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” Sərəncamına əsasən, əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiya müəyyən olunub. Müəyyən olunmuş subsidiyanın plastik kartlarla, bankomatlar vasitəsilə sahibkarlara ödənilməsi davam etdirilir.

***– Həyata keçirilən kompleks tədbirlər, nəticə etibarilə, bir məqsədə – əhalinin sağlam ərzaq məhsulları ilə etibarlı təminatına xidmət edir.***

– Əhalinin, həm də emal müəssisələrinin ət və süd məhsulları ilə təmin edilməsi istiqamətində müsbət dinamika mal-qaranın baş sayının və heyvandarlıq məhsulları istehsalının həcminin artırılmasında da müşahidə olunub. Müqayisə üçün qeyd edək ki, 1 oktyabr 1996-cı il tarixə muxtar respublikamızın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 48 min 707 baş, qoyun və keçilərin sayı isə 245 min 757 baş olmuşdursa, 1 iyul 2016-cı il tarixə muxtar respublikamızın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 118 min 152 baş, qoyun və keçilərin sayı isə 740 min 497 başa çatdırılıb. Təbii ki, heyvanların baş sayının artımı daxili bazarın ət, süd və süd məhsulları ilə təminatına da müsbət təsir göstərib, 2016-cı ilin yanvar-iyun aylarında muxtar respublikada diri çəkidə 11294,8 ton ət, 47097,5 ton süd istehsal olunub ki, bu da 2015-ci ilin yanvar-iyun ayları ilə müqayisədə müvafiq olaraq 1,6 və 1,7 faiz çoxdur. Həmçinin muxtar respublikamızda arıçılığın inkişafı da diqqət mərkəzində saxlanılıb, dövlət maliyyə dəstəyi göstərilib, arıçılıqla məşğul olanlar pulsuz dərman preparatları ilə təmin olunublar. Bu istiqamətdə həyata keçirilən tədbirlər öz bəhrəsini verib, arı ailələrinin sayı 70 mini ötüb. Onu da qeyd edək ki, təkcə ölkəmizdə mövcud olan entomofil bitki növlərini nəzərə alsaq, kənd təsərrüfatı bitkilərinin bal arıları tərəfindən tozlandırılmasından əldə olunan gəlir onların istehsal etdiyi məhsulların dəyərindən (bal, mum, arı südü, çiçək tozu və sair) on dəfələrlə çoxdur.

***– Kütləvi informasiya vasitələrində ayrı-ayrı xarici ölkələrdə infeksion xəstəliklərlə bağlı məlumatlar yayılır.***

– Müxtəlif xəstəlikləri yaradan viruslarla əlaqədar olaraq sərhəd rayonlarında baytar həkimləri dövlət strukturlarının əməkdaşları ilə birgə mütəmadi olaraq monitorinqlər aparırlar. Profilaktik tədbirlər həyata keçirilir və nümunələr götürülərək xüsusi təhlükəli xəstəliklərin diaqnostiki müayinə laboratoriyasında yoxlanılır. Laboratoriyanın nəticələrinə uyğun olaraq müvafiq profilaktiki tədbirlər həyata keçirilir.

**✍ Kərəm HƏSƏNOV**

# Kənd təsərrüfatı texnikaları ilə təminat yüksək səviyyədədir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif xidmətlərin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir, kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə fermerlərə verilməsini təmin edir. Cəmiyyətin xəttilə muxtar respublikaya 57 ədədi 2016-cı ildə olmaqla, cəmi 1742 ədəd müxtəlif təyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqları alınıb gətirilib.***



Cəmiyyətə məxsus olan texnika və texnoloji avadanlıqların saxlanılması da diqqət mərkəzindədir. 2010-cu ildə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və onun Şərur, Culfa, 2011-ci ildə Sədərək, Kəngərli, Ordubad, 2013-cü ildə isə Şahbuz bazalarında inzibati bina, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilib. Hazırda “Naxçıvan Aqrolizinq” ASC-nin bazasında 294 ədəd müxtəlif texnika və avadanlıq vardır. Bunun 26 ədədi Şərur, 37 ədədi Babək, 25 ədədi Culfa, 10 ədədi Sədərək, 9 ədədi Ordubad, 14 ədədi Şahbuz, 15 ədədi isə Kəngərli bazalarına icarəyə verilib. Həyata keçirilən tədbirlər əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsini, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasını təmin edir. Məlumat üçün bildirək ki, cari ilin taxıl biçini kampaniyası optimal müddətə başa çatdırılıb, sahələrdən bol məhsul götürülüb. Hazırda payız əkini kampaniyasına hazırlıq görülür, texnikalara baxış keçirilərək mövsümə hazır vəziyyətə gətirilir.

Ölkə başçısının “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri mineral gübrələrin dövlət tərəfindən ödənilməsi diqqət mərkəzində saxlanılıb. Sərəncama əsasən kənd təsərrüfatı texnikalarının hüquqi və fiziki şəxslərə müddətli ödənişlə satılmasına da güzəştlər tətbiq olunub. Belə ki, 2007-ci ilədək satılan kənd təsərrüfatı texnikaları dəyəri 5 il müddətinə ödənilib dəyərinin 120 faizi məbləğində girov qoyulmaqla satılırdısa, 2011-ci ilədək 10 il müddətinə və dəyərinin 20 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. 2011-ci ilin yanvar ayından isə kənd təsərrüfatı texnikaları 10 il müddətinə və dəyərinin 10 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. Hazırda texnikaların ilkin dəyəri 20 faiz ödənilməklə dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq olunur. Bu da, təbii ki, texnikaların hüquqi və fiziki şəxslər tərəfindən alınmasına əlverişli şərait yaradıb, 2016-cı ildə 11 ədədi nağd və köçürmə, 86 ədədi lizinq yolu ilə olmaqla, ümumilikdə, 1472 ədəd texnika satılıb.

***Muxtar respublikada kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının davamlı xarakter alması bu sahədə gözəçarpan nailiyyətlər qazanılmasına stimul olub.***

# Kreditlər və başqa yardımlar kənd təsərrüfatının inkişafında mühüm rol oynayır

Torpaq mülkiyyətçilərinə güzəştli kreditlərin, keyfiyyətli toxum sortlarının, gübrələrin verilməsi belə qayğının tərkib hissəsidir və bu, cari ildə də diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, taxıl istehsalçılarına yanacaq və sürtkü yağlarına görə 2016-cı ilin fevral ayında 1 milyon 521 min manat, aprel ayında isə 5124 sahibkara 2 milyon 392 min manat dəyərində 4905 tondan artıq azot gübrəsi verilib.

“Azərbaycan Respublikasında buğda istehsalçılarının maddi marağının artırılması və onların stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2007-ci il tarixli qərarı torpaq sahibkarlarının bu sahəyə marağını daha da artırıb.

Cari ilin may ayında 3854 buğda istehsalçısına becərdikləri 26792 hektar buğda sahəsi üçün 1 milyon 72 min manat, yazlıq əkinlər üçün isə iyul ayında 1877 sahibkara 26926 hektar sahə üçün 1 milyon 346 min manat dəyərində yardımlar verilib.

2016-cı ilin 6 ayında, ümumilikdə, kənd təsərrüfatı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 7 milyon 234 min manat kredit verilib. Bunun da 392 min manatı və ya 5,4 faizi bitkiçilik sahəsinə, 13 min manatı və ya 0,2 faizi bağçılıq sahəsinə, 6 milyon 96 min manatı və ya 84,3 faizi heyvandarlıq sahəsinə, 258 min manatı və ya 3,5 faizi arıçılıq sahəsinə, 475 min manatı və ya 6,6 faizi quşçuluq sahəsinə ayrılmış kreditlərdir.

**Xəbərlər şöbəsi**

## Qədim yurd yerimiz Nəhəcir bu gün abadlığın, quruculuğun işığına qərq olub

***Adətən, ucqar dağ kəndlərinin insanları daha qonaqpərvər olurlar. Uca dağlara baş qoyub üzünü geniş düzənliyə tutan belə yurd yerlərinin insanları ilk gördüyümüz andan qonaqlara elə səmimi münasibət göstərirlər ki, sanki illərdir, tanıyırlar bir-birlərini. Düşünürsən ki, bəlkə, mətin qayaların, dağların ətəyindən pıqqıldayıb üzə çıxan bulaqların, yaz gələndə coşub-çağlayan dağ çayının, ya düzənlərdə adamın qəlbini oxşayan lalələrin saflığı, təmizliyi çöküb bu insanların qəlbinə? Budur, belə kəndlərdən birindəyik.***

... Babək rayonunun Nəhəcir kəndində ilk olaraq kəndin yaraşıqlı məktəb binasının qapısını döyürük. Məktəblilərin yay tətili günləri olduğu üçün dəhlizdə səssizlik var. Hər tərəfdə səliqə-sahman göz oxşayır. Məktəb binası 2011-ci ildə istifadəyə verilib.

Məktəbin qocaman müəllimi Əli Tarverdiyev təhsil ocağının tarixindən söz açır, keçdiyi çətinlikləri dilə gətirir. Bildirir ki, əsası 1939-cu ildə qoyulmuş bu məktəbdə əvvəlcə kəndin uşaqları ibtidai təhsil alıblar, sonra səkkizillik, 1983-cü ildən tam orta məktəb kimi fəaliyyət göstərir. Müsahibimiz öz həyat yolunda çəkdiyi əziyyətlərdən də danışır. Deyir ki, ibtidai sinfi bitirəndən sonra Sirab kəndinə gedib. Bir il orada, üç il Culfa rayonunun Qazançı, sonrakı illəri Bənəniyar kəndində oxuyub.

Onun arzusu müəllim olmaq, öz doğma kəndində uşaqlara təhsil vermək imiş. Bu arzusunu reallaşdırıb və uzun illər məktəbə rəhbərlik edib. Deyir ki, 1967-ci ildə kənd camaatı ilə yığışıb məktəb binası tikdik. Amma getdikcə bina köhnəldi, yararsız hala düşdü. Onu da bildirir ki, çətinliklər içərisində olsaq da, məktəbimiz yaxşı məzunlar yetişdirmişdir. Qızıl, gümüş medal alanlar olub. Yetirmələrimiz bu gün müxtəlif sahələrdə çalışırlar. Burada dərs deyən müəllimlərin hamısı öz məktəbimizin yetirmələridir.

Həmsöhbətim deyir ki, əvvəllər məktəbdə şagird sayı azalmağa başlamışdı. Övladlarının hərtərəfli şəraitə malik məktəblərdə təhsil alması üçün bəzi ailələr köçdü buradan. Amma kənddə aparılan abadlıq-quruculuq, yenidənqurma tədbirləri insanların başqa yerlərə getmələrini dayandırdı. Nəinki dayandırdı, artıq köçənlər də geri qayıtmağa başladılar. Bunun nəticəsidir ki, əgər keçən il birinci sinfə 2 uşaq gəlirdisə, bu il artıq onların sayı 11-dir. Ulu öndər Heydər Əliyevin təhsil siyasəti bu gün uğurla həyata keçirilir və öz bəhrələrini də verir. Bu gün uşaqların təhsilə marağı artıb. 2015-2016-cı tədris ilində məktəbi bitirən 5 məzundan 1-i ali, 4-ü orta ixtisas məktəblərinə qəbul olunub.

Bəli, son illər muxtar respublikanın bütün bölgələrində aparılan quruculuq tədbirləri Babək rayonunun Nəhəcir kəndini də ağuşuna alıb. Beş il bundan əvvəl uçuq-sökük, yararsız məktəb binasının yerində yaraşıqlı, tədrisin yüksək səviyyədə aparılması üçün hərtərəfli şəraitə malik üçmərtəbəli təhsil ocağı ucaldılıb. Hazırda məktəbdə 11 sinif otağı, kimya-biologiya, fizika laboratoriyaları, hərbi kabinə, elektron lövhəli sinif, kompüter sinfi və müəllimlər otağı, kitabxana, bufet var. Məktəb kitabxanasına şagirdlərin elmin sirlərinə dərindən bələd olmaları üçün 2741 dərslik və bədii ədəbiyyat verilib. 6 kompüter nəhəcirli şagirdlərin informasiya-kommunikasiya texnologiyalarının imkanlarından səmərəli istifadə etmələrinə geniş imkan açıb.

Məktəbdə müasir idman zalı var, həyətdə açıq idman qurğuları qoyulub. İdman zalında müxtəlif idman növləri ilə məşğul olmaq üçün lazımi şərait yaradılıb. Odur ki, şagirdlər idman müəllimi Rəfail Yaqubovun rəhbərliyi altında bu sahədə uğurlara imza atırlar. Elə bunun nəticəsidir ki, məktəbin şagirdləri bu il "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə rayon birinciliyində qalib gələrək muxtar respublika yarışında Babək rayonunu təmsil edib və burada da yarışın ikincisi olublar.

Nəhəcir kəndində daha bir yeni ünvan insanların sağlamlığına xidmət edən səhiyyə məntəqəsidir. Kənd mərkəzində yerləşdirilmiş, 3 otaqla təmin olunmuş bu səhiyyə ocağında əhaliyə ilkin tibbi yardımın göstərilməsi, uşaqlar arasında peyvənd işinin təşkili diqqət mərkəzində saxlanılır.

İkimərtəbəli kənd mərkəzi kənddə bir neçə idarə və təşkilatın yerləşdiyi ünvandır. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, mədəniyyət evi üçün hər cür şərait yaradılıb.

Kənddə xidmət mərkəzi də fəaliyyət göstərir. Burada 2 mağaza var, eləcə də əhaliyə müxtəlif məişət xidmətlərinin göstərilməsi üçün gözəl şərait yaradılıb.

Kənddə kompleks quruculuq işlərinin aparılması, Qahab və Nəhəcir kəndləri arasındakı 12,8 kilometrlik yolun, kənddaxili yolların təmir olunması, içməli su probleminin həll edilməsi, yeni ATS-in quraşdırılması, kəndin daimi elektrik enerjisi və təbii qazla təmin edilməsi, bir sözlə, bu kənddə əhalinin yaşayışı üçün lazımi şəraitin yaradılması insanların məskunlaşmasına səbəb olub. Üstəlik, başqa yerlərdən də bu dilbər guşəyə yaşamağa gələnlər var ki, bunun da nəticəsində son illər kənddə yeni fərdi evlər tikilib.

Nəhəcir kəndinin geniş otlaqları, bərəkətli torpaqları burada əkinçilik və heyvandarlıq üçün əlverişli şərait yaradır. Hazırda kənddə 580 baş qaramal, 5435 baş davar saxlanılır. Kənd adamları taxıl əkininə üstünlük verirlər. Həyətyanı sahələrdə isə hər ailə öz tələbatına görə tərəvəz bitkiləri əkib-becərir. Kənddə arıçılıq da gəlirli sahələrdən sayılır. Ümumilikdə, burada 267 arı ailəsi saxlanılır. Kənd sakinlərindən Kərəm Həsənovun 60 arı ailəsi, bundan başqa, 10 baş qaramalı var. Azər Hacıyev də təcrübəli arıçı sayılır. 30 arı ailəsi, 6 baş iribuynuzlu mal-qara bəsləyir. Rafiq Rəcəbov və Balakişi Əhmədov isə heyvandarlıqla dolanışıqlarını qurublar. Onların hər biri 150 baş, Şahvələd Rəcəbov isə 110 baş davar bəsləyir. Həvva Seyidova 10 baş qaramaldan aldığı məhsulla ailəsinin dolanışığını təmin edir.

Bu dağların qoynunda elə bir sakin yoxdur ki, qəlbən torpağa bağlı olmasın, zəhməti sevməsin. Bu amillər və kəndin ab-havası burada insanların uzunömürlülüyünün səbəbidir. İkinci Dünya müharibəsinin od-alovlarını görmüş Kazım Hacıyevin 93 yaşı var. O illərin ağrı-acılarından söz açan, Vətən sevgisini bu gün gənclərə, nəvələrinə aşılayan veteranın yaşıdları, həmkəndliləri Şahhüseyn Novruzov, Kəklik Novruzova, Həcər Qalayeva isə müharibə illərində kəndin çəkdiyi məşəqqətli günləri dilə gətirdilər, bugünkü firavan dolanışığa görə dövlətimizin başçısına minnətdar olduqlarını bildirdilər. Özünün ixtiyar çağlarını yaşayan insanlar kəndin cavanlarına milli dəyərlər zəminində öyüd-nəsihət verməyi də unutmurlar. Qonaqpərvərlik, böyüyə hörmət, kiçiyə məhəbbət, dövlətə sədaqət hər bir nəhəcirlinin qanına hopub.

Nəhəciri bir xeyli gəzib dolaşdıq. Halal çörəyini alın təri ilə torpaqdan qazanmış insanlarla həmsöhbət olduq. Və dönüşümüzdə Nəhəcir dağının ətəyindən çıxan, səsi-sorağı diyarın hər yerinə yayılmış mineral su mənbəyinə baxmağı da unutmadıq. Dəniz səviyyəsindən 1700 metr hündürlükdə olan, karbonqazlı, az minerallaşmış, hidrokarbonatlı, natriumlu su kənd adamlarının dediyinə görə, mədə-bağırsaq xəstəliklərində əvəzolunmaz vasitədir, həmçinin qanazlığının müalicəsi zamanı içilməsi müsbət nəticə verir. Su mənbəyinin ətrafında oturacaqlar qoyulub, ağaclar əkilib və istirahətə gələnlərin rahatlığı təmin olunub. Su hər saatdan bir qaynayıb çıxır, 5 metrədək hündürlüyə fəvvarə vurur və sonra mənbəyinə qayıdır.

Kənddən ayrılarkən bir daha dönüb heyranlıqla qədim yurd yerini, füsunkar mənzərələri seyr etdik və mərhum Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında kəndin adı haqqında yazılan fikirləri xatırladıq. Kitabda qeyd olunur ki, respublikamızda ən qədim toponimlərdən biri olan Nəhəcir tədqiqatçıların fikrincə, Nuh Peyğəmbərin gəmisinin düşdüyü Gəmiqaya dağının yaxınlığındakı 1799 metr hündürlükdə olan Nəhəcir dağının adı ilə adlanmışdır. Toponim Nuh Peyğəmbərin adı və fars dilindəki cir (yamac, maili yer) sözlərindən ibarət olub "Nuhun yamacı" mənasını verir.

Deməli, Nuh Peyğəmbərin adı ilə bağlı olan bu yurd yerimiz müqəddəs bir ocaqdır. Odur ki, naxış vurduqca gözəlləşir, abadlığı füsunkarlığını artırır.

**Hafizə ƏLİYEVA**

***Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müalicəvi suların olduğu yerlərdə səhiyyə ocaqlarının, sanatoriyaların tikilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində belə səhiyyə müəssisələrinin də fəaliyyəti dayandırılıb. Ulu öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf təbii üsullarla müalicə məqsədilə inşa olunmuş səhiyyə ocaqlarının da yenidən qurulmasına geniş imkanlar açıb. Ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, yeni səhiyyə ocaqları ilə yanaşı, təbii üsulla müalicə məqsədilə yaradılmış Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilib. Bu da, təbii ki, ölkə vətəndaşları ilə yanaşı, xarici ölkələrdən gələnlərin də sağlamlığının bərpa olunmasında mühüm rol oynayıb, müalicə turizminin inkişafına geniş imkanlar açıb.***

## Darıdağ Arsenli Su Müalicəxanasına müraciət edənlərin sayı ilbəil artır

### *Bu, müalicəxanada tibbi xidmət göstərilməsi üçün yaradılan yüksək şəraitin nəticəsidir*



"Mineral suların təbii muzeyi" adlandırılan Naxçıvanda 200-dən artıq mineral və müalicəvi su mənbəyi vardır ki, bunlardan bir çoxu tərkibinə görə nadir sulardan hesab olunur. Böyük debitə malik olan yeraltı sərvətlərdən biri də Darıdağ arsenli mineral suyudur. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Şorsu dərəsində "Şəfa bulağı" adlanan əraziyə yaxınlaşdıqda quruculuq ərməğanlarının təbiət görüntüləri ilə həmahənglik təşkil etdiyi ecazkar bir mənzərə ilə qarşılaşırsan. Naxçıvan-Ordubad magistralından müalicəxanayadək olan avtomobil yolu asfalt-beton örtük salınmaqla yenidən qurulub, burada yeni bina tikilib, müalicə olunanların istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Darıdağ Arsenli Su Müalicəxanasının direktoru Zəfər Məmmədov bizimlə söhbətində bildirdi ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə Q.Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılıb, 1928-ci ildə isə Lanqvaqren bu suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənib. Sonralar da Darıdağ suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilib. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar edib ki, Darıdağ arsenli isti suyunda müalicə olunan xəstələr üçün müəyyən edilmiş bir seansın müddəti 10-12 dəqiqədən artıq olmamalıdır. Əks halda, ürək qan damarlarının genişlənməsi baş verər. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür.

İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su ona müalicəvi təsir göstərməklə onun iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qandövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığı aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilibdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə edildiyini bildirən müəssisə direktoru onu da qeyd etdi ki, 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilib. Həkim, müayinə otaqları və qapalı hovuzlardan ibarət olan müalicəxanada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Həkim və müayinə otaqları yeni mebel dəstləri ilə təchiz edilib, hovuzlarda döşəməyə mərmər plitələr düzülüb, havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Müalicəxanada sanitar-gigiyenik qaydalara ciddi əməl olunur, hovuzların vaxtında təmizlənməsi diqqət mərkəzində saxlanılır. 1080 metr dərinlikdən çıxan 5 nömrəli bulaqdan arsenli su borular vasitəsilə qadın və kişilər üçün ayrı-ayrı qapalı hovuzlara nəql edilir. Bulağın gözündə suyun hərarəti 52 dərəcə, vannalarda isə 37-41 dərəcə olur. Burada arsenli su vannası qəbul etməklə revmatik, dəri, əzələ, sinir və dayaq hərəkət sistemləri xəstəliklərinin ambulator müalicəsi aparılır. Müalicə müddəti gündə 10-12 dəqiqə olmaqla, 12-14 gündür. Darıdağ suyunun müvafiq qaydalara uyğun şəraitdə qablaşdırılmış və qurudulmuş formaları öz kimyəvi sabitliyini (tərkibini) saxladığı üçün mənbədənkənar müalicə müəssisələrində, hətta ev şəraitində də istifadəsinin mümkünlüyü onun dəyərini daha da artırır.

Bu tibb ocağında müalicə olunanlarla həmsöhbət olduq. Bakı şəhər sakini Nəzrin Bədəlova aşağı ətraflarda şiş, dəridə ləkə, ağız boşluğunda diş ətinin qanaxmasından əziyyət çəkdiyini və ikinci ildir ki, bu müalicəxananın xidmətlərindən istifadə etdiyini, müalicənin də yaxşı nəticə verdiyini bildirdi. Sumqayıt şəhər sakini Aybəniz Behbudova isə dedi ki, oynaq ağrıları ilə əlaqədar birinci dəfədir, buraya gəlir. Dördüncü gündür vanna qəbul edir. İlkin nəticələrə görə, səhhətində olan problemlərin aradan qalxacağına inanır. Söhbətimizə qoşulan Elçin Əliyev bildirdi ki, əslən qarabağlıyam. Hazırda Xəzər rayonunun Mərdəkan qəsəbəsində yaşayıram. Qızım Ayselin dəri-sinir toxumalarının allergiyası xəstəliyi ilə bağlı Darıdağ Arsenli Su Müalicəxanasına müraciət etdik. Qızım beşinci gündür ki, müalicə alır, çox gözəl nəticəsi olub. Rusiya Federasiyasının Arxangelsk vilayətindən gələn Nikolay, Lida və Julya Mamoyevlər isə revmatit poliartrit xəstəliyi ilə əlaqədar üçüncü gündür ki, vanna qəbul etdiklərini bildirdilər və ilkin nəticələrdən razılıqlarını ifadə etdilər. Elə digər müalicə olunanlar da yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Onu da qeyd edək ki, müalicəxananın xidmətlərindən istifadə edən xarici ölkə vətəndaşları da az deyil. Cari ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 faiz çox, 2 min 454 vanna qəbulu olub ki, bunun da 139-u Türkiyə, İran, Rusiya, Yaponiya və Qazaxıstandan gələn xəstələr tərəfindən qəbul edilib. Müalicəxanaya müraciət edənlərin sayı ildən-ilə artır. Bu məqsədlə müalicəxanada daxili imkanlar hesabına hər il cari təmir işləri aparılır, buraya müraciət edənlərin daha yaxşı müalicəsi və istirahəti təmin edilir.

**Kərəm HƏSƏNOV**

*1973-cü ildə Naxçıvan şəhərində yaradılan Gənc Turistlər Stansiyası 2005-ci ildən Turist-Diyarşünaslıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. Bu dövrdə yüzlərlə məktəbli bu mərkəzə cəlb olunub, burada təşkil edilmiş dərnəklərdə onların istedad və bacarıqları üzə çıxarılaraq düzgün formalaşdırılıb.*

# Naxçıvan Muxtar Respublikası Turist-Diyarşünaslıq Mərkəzi



Mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə bu günlərdə həmin ünvana üz tutduq. Mərkəzin direktoru Murad Babayev bildirdi ki, bu məktəbdənkənar müəssisə hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 2013-cü ildə bina yenidən qurularaq mərkəzin kollektivinin ixtiyarına verilib. “Mərkəzin yaradılmasında əsas məqsəd uşaqların asudə vaxtlarını maraqlı, əyləncəli keçirməsini təmin etmək, gənc nəslə doğma diyarı sevdirmək və vətənpərvərlik hissləri aşılamaq, onları tarixi abidələrlə tanış etməkdən ibarətdir”, – deyən Murad Babayev onu da vurğuladı ki, gənc nəsli qədim diyarımızla hərtərəfli tanış etməkdə məqsəd onlarda yurd sevgisi, yurda bağlılıq və vətənpərvərlik hissləri yaratmaqdan ibarətdir. Burada keçirilən ekskursiyalar qabaqcadan planlı şəkildə və tədbirlər planına əsasən, məqsədyönlü olaraq planlaşdırılır. Gənc turistlərə tariximiz, mədəniyyətimiz, incəsənətimiz, mənəvi dəyərlərimiz, turizmin kütləvi formaları öyrədilir və təbliğ edilir. Bunun üçün mərkəzdə “Azərbaycanı sev və öyrən” devizi altında ekspedisiya dəstələri yaradılıb. Mərkəzdə təşkil edilmiş ədəbiyyat, tarix, coğrafiya üzrə diyarşünaslıq, piyada turizm, gənc turist, ekoloq, geoloq, təlimatçı və bələdçi dərnəklərinə 1500 şagird cəlb olunub. Yay tətili günlərində daha bir dərnək təşkil edilib. “Kənd turizmi” adlanan bu dərnəyə cəlb olunmuş məktəblilərə muxtar respublikanın turizm potensialı haqqında məlumatlar verilir, onlar diyarımızın gəzməli, görməli yerlərinə aparılır, turizm üçün əlverişli olan kəndlərimizlə tanış edilirlər.

Məktəblilərin Azərbaycan mədəniyyəti, incəsənəti, milli kinosu ilə tanış olmaları da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə onlara Azərbaycan filmlərinin nümayişi təşkil edilir.

2015-2016-cı tədris ili ərzində mərkəzdə şair və yazıçılarla, müharibə və əmək veteranları, şəhid ailələri və qabaqcıl müəllimlərlə, eləcə də digər peşə sahibləri ilə görüşlər keçirilib.

Muxtar respublikamızın qədim tarixinin uşaqlar tərəfindən öyrənilməsi baxımından mərkəzdə yaradılmış tarix-diyarşünaslıq muzeyinin fəaliyyətindən razılıqla danışmaq olar. Muzeydə qədim, orta və müasir dövrü əks etdirən eksponatlar yerləşdirilib. Burada “İmamzadə” kompleksi, Hüseyn Cavid məqbərəsi, Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələrinin uşaqlar tərəfindən hazırlanan maketlərini görmək olar. Muzeydə orta əsrlərə aid saxsı qablar, boyalı qablar, döyüş və əmək alətləri, XIII-XIX əsrlərə aid kağız, mis, latun pullar, uşaqların Duzdağ Fizioterapiya Mərkəzində olduqları müddətdə tapdıqları fərqli, faydalı daş süxur nümunələri, kətan parça üzərinə muncuqla, sapla toxunmuş gözəl əl işləri nümayiş etdirilir.

Mərkəzə cəlb olunmuş məktəblilərin muxtar respublika iqtisadiyyatında önəmli rol oynayan sahibkarlıq subyektlərinə, emal və istehsal müəssisələrinə ekskursiyaları təşkil olunur. Bu baxımdan onların “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinə, Naxçıvan Avtomobil Zavoduna, “MM” Ət və Ət Məhsulları istehsalı müəssisəsinə ekskursiyaları yaddaqalan olub. Bu müəssisələrdə uşaqlar muxtar respublikada istehsal edilən məhsullarla yaxından tanış ediliblər.

Öyrəndik ki, mərkəzin Naxçıvan şəhərindəki tam orta məktəblərdə dərnəkləri təşkil edilib. Belə tədris ocaqlarından biri də 1 nömrəli tam orta məktəbdir. Buradakı piyada turizm, gənc ekoloq və coğrafiya-diyarşünaslıq dərnəklərinin fəaliyyəti ilə tanış olduq. Piyada turizm dərnəyinin rəhbəri Sevda Məmmədova bildirdi ki, məktəbdənkənar müəssisələr uşaqların bacarıq və istedadlarının üzə çıxarılmasında, düzgün formalaşdırılmasında, məktəblilərin asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Ona görə də muxtar respublikada belə müəssisələrin fəaliyyətinə hərtərəfli şərait yaradılıb. Onlar da bu şəraitdən səmərəli istifadə etməyə, tapşırılan vəzifələrin öhdəsindən gəlməyə çalışırlar. Dərnək üzvlərinin bu dərs ilində Naxçıvan-Şəkərabad, Naxçıvan-Şıxmahmud, Naxçıvan-Tumbul, Naxçıvan-Qaraçuq istiqamətində təşkil edilən piyada yürüşlərinin yaddaqalan olduğunu dilə gətirən Sevda Məmmədova onu da diqqətə çatdırdı ki, yürüşlər zamanı şagirdlərə olduqları ünvanlar, həmin yaşayış məntəqələrinin tarixi, mədəniyyət abidələri barədə ətraflı məlumatlar verilib.

Coğrafiya-diyarşünaslıq dərnəyinin rəhbəri Məhəbbət Abdullayeva, gənc ekoloq dərnəyinin rəhbəri Türkan Quliyeva da belə məktəbdənkənar müəssisələrin əhəmiyyətini vurğulayaraq həyata keçirdikləri tədbirlərdən danışdılar. Məktəbdə dərnək üzvlərinin hazırladıqları sərgilərlə tanış olduq.

Bütün bunlar belə deməyə əsas verir ki, adıçəkilən mərkəzin dərnək üzvləri asudə vaxtlarını səmərəli keçirir, yurdumuzun coğrafiyasını, tarixini, turizm potensialını öyrənir, bilik və bacarıqlarını artırırlar. Şəhərimizdəki 11 nömrəli məktəbdə yaradılmış gənc ekoloq dərnəyinin fəaliyyəti barədə də xoş sözlər demək olar. Dərnəyin rəhbəri Ramidə Rəhimova muxtar respublikada həyata keçirilən ekoloji siyasətin mahiyyətinin uşaqlara çatdırılmasına çalışır.

**Telli MUSTAFAYEVA**

## Kitab bilik mənbəyidir

*Şərur şəhərindəki “Bahar” kinoteatrında rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə məktəb direktorlarının, sinif rəhbərlərinin və kitabxana müdirlərinin iştirakı ilə “Kitab bilik mənbəyidir” adlı tədbir keçirilib. Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov məruzə edib.*

Qeyd olunub ki, rayondakı 56 ümumtəhsil məktəbinin hamısında kitabxana fəaliyyət göstərir. Məktəblilərin asudə vaxtlarının təşkilində, şagirdlərin mütaliə mədəniyyətinin formalaşdırılmasında bu kitabxanaların üzərinə böyük vəzifələr düşür.

Vurğulanıb ki, muxtar respublikada daha çox diqqət yetirilən sahələrdən biri də təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun maddi-texniki təminatının daha da yaxşılaşdırılmasıdır. Bu məqsədlə həyata keçirilən tədbirlərin nəticəsidir ki, artıq ümumtəhsil müəssisələrinin böyük əksəriyyəti yeni, müasir arxitektura əsasında inşa olunmuş, yaxud yenidən qurulmuş binalarda fəaliyyət göstərir. Bu binalarda kitabxanalar üçün də geniş və hərtərəfli şəraiti olan, kompüterlə təmin olunmuş otaqlar ayrılır.

Zaur Həsənov bildirib ki, bütün bunların müqabilində bu gün məktəb kitabxanalarına daha çox oxucu cəlb edilməli, uşaqlar kitabın bilik mənbəyi olduğunu daha dərindən dərk etməlidirlər. Kitabxanalarda vaxtaşırı kitab müzakirələri, konfranslar, ədəbi-bədii tədbirlər, tanınmış ədəbiyyat adamlarının yubileyləri keçirilməli, bu tədbirlərdə məktəblilərin fəal iştirakı təmin olunmalıdır.

Tədbirdə Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin kitabxanaçısı Fatma Seyidova, məktəbin müəllimləri Zenfira Əliyeva və Yeganə Bağırova çıxış edərək məktəb kitabxanalarının fəaliyyətini daha da canlandırmaq üçün qarşıda duran vəzifələrdən danışıblar.

**Elman MƏMMƏDOV**

## Futbol idman növü uşaqlara nə vəd edir?

*Müasir dövrümüzdə çoxlarını daha çox cəlb edən idman növü futboldur. Futbol oynamaq üçün, ilk növbədə, daxili istək lazımdır. Bu baxımdan uşaqlarda heç bir problem yoxdur. Ayağı top tutan istənilən uşağın muxtar respublikanın müxtəlif bölgələrində tikilmiş meydançalarda futbol oynadığını görmək mümkündür. Dünya səviyyəli futbolçuların bu tipli meydançalardan çıxdığı da məlumdur. Bu gün uşaqların futbol vərdişlərinə yiyələnməsi, biliyini zənginləşdirməsi və daha geniş məkanda nümayiş etdirməsi üçün şərait də yaradılıb.*



Naxçıvanda gənc nəslin fiziki-mənəvi inkişafı idmana, futbola yönəlməsi istiqamətində xeyli iş görülüb. Təhsil müəssisələrində, əhalinin yaşayış yerlərində futbol infrastrukturunun yaradılması, ali, orta ixtisas və ümumtəhsil məktəblərində futbol bölmələrinin açılması, məhəllə, xüsusilə kənd komandaları arasında futbol üzrə yarışların təşkili müvafiq qurumlar tərəfindən həyata keçirilir. Ali, orta ixtisas və ümumtəhsil müəssisələrində yeniyetmə və gənclərin idmanla məşğul olması üçün əlverişli şərait yaradılıb, futbolun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində şagird və tələbələr arasında idmanın bu növünə maraq xeyli artıb. Uşaq, yeniyetmə və gənclər arasında futbol idman növünü təbliğ etmək, perspektivli futbolçuları üzə çıxarmaq məqsədilə il ərzində mütəmadi olaraq muxtar respublika səviyyəli çempionatlar təşkil olunur.

Uşaq futbolunda ilk olaraq ortaya çıxan sual, adətən, bu olur: perspektivli futbolçu necə yetişməlidir? Perspektivli futbolçunu üzə çıxarmaq üçün əsas amillərdən biri uşaqlar arasında yarışlar keçirmək, seleksiya xarakterli məşqlər təşkil etməkdir. Həm məhəllə futbolu, mini-futbol yarışları, həm də müxtəlif əlamətdar tarixi günlərə həsr olunmuş yarışlar, əslində, uşaq futbolunun inkişafının göstəricisidir. Mütəxəssislərin fikrinə görə, uşaq futbolunun inkişafı daha çox uşaq-gənclər idman məktəblərinin üzərinə düşür. Məktəblilərin asudə vaxtlarını səmərəli keçirmələri üçün mövcud şəraitin yaradılması və uşaqların bu bölmələrə cəlb edilməsi günün tələbidir.

Muxtar respublika Gənclər və İdman Nazirliyi bu yöndə təqdirəlayiq addımlar atır və atmaqdadır. Bu gün “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun nəzdində uşaq futbolu fəaliyyət göstərir və burada özlərini müsbət yöndə göstərən uşaqlar əsas komandaya cəlb olunur. Hazırda klub seçimlərə start verib və istedadlı uşaqları, yeniyetmələri komandaya cəlb edir.

Ümumiyyətlə, uşaq futbolunun inkişafı birbaşa infrastrukturdan, şəraitdən, maddi-texniki bazadan asılıdır. Çünki ilk addımlarını atan balacalar normal şəraitdə hazırlanmasalar, onların bacarıq və istedadlarını üzə çıxarmaq çətin məsələdir. Muxtar respublikada bu istiqamətdə hər şey öncədən düşünülüb, planlaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının nəzdində uşaq futbol bölmələri fəaliyyət göstərir və burada yüzlərlə uşaq futbolun sirlərini öyrənir.

Uşaq futbolunun inkişafı baza ilə yanaşı, ilk növbədə, məşqçi amilindən də çox asılıdır. Məşqçi meydanda məşq prosesi keçməklə yanaşı, eyni zamanda metodist, müəllim olmalıdır. Futbol bir elmdir, futbolçunun meydanı görmək bacarığı, ani və düzgün hesablanmış qərar qəbul etməsi isə bu elmin bir açarıdır. Futbolçulardan istənilən səviyyəni yaratmaq məşqçinin işi ilə ölçülür. Məşqçi uşağa kollektiv yanaşma ilə bərabər, onun xarakterinə uyğun olaraq fərdi qayğı da göstərməlidir.

Bu gün Naxçıvanda uşaq futbolunun hansı səviyyədə olduğunu öyrənmək üçün məşqçilərin də fikirlərini öyrəndik. “Araz-Naxçıvan”ın baş məşqçisi Sakit Əliyev ilk olaraq futbolla məşğul olmağın sağlamlığa faydaları haqda məlumat verdi: “Ümumiyyətlə, körpə yaşlarından idmanla məşğul olmaq vacibdir. Valideynlər uşaqları 2-3 yaşdan üzgüçülük, gimnastika, aerobika kimi idman növlərinə yönəltsələr, yaxşı olar. Futbola isə 4-5 yaşından etibarən başlamaq tövsiyə edilir. Lakin bu yaşda futbol daha çox əyləncəli oyun kimi keçirilməli, uşaq bundan zövq almalıdır. Çünki həmin yaşda uşağa taktika, texnika başa salmağa çalışmaqla, o məşqdən effekt almaz olmaz”.

Futbol uşağa nə vəd edir? Bu sualımızı isə məşqçi belə cavablandırdı: “Hazırda bu, uşaqlar üçün çox fərqli sualdır. Əgər dünya futbolundan danışsaq, uşaqlara, ilk növbədə, sosiallıq bəxş edir. Statistikaya görə, uşaqların, təxminən, 50 faizi yetkinlik yaşına çatdıqdan sonra futbolla məşğul olmağı yekunlaşdırıb başqa sahəyə keçir. Lakin təcrübə göstərib ki, onlardan bəziləri gələcək karyeralarını qurmaqda çətinlik çəkirlər. İdman və təhsil problemi həmişə olub, idmana gedənlər təhsili bir kənara qoymalı olublar. Uşaq 15 yaşına kimi futbolla yanaşı, təhsilinə də fikir verməlidir. Çünki futbol ayaqla yanaşı, başla da oynanılan bir idman növüdür”.

Futbol Federasiyasının məşqçi-müəllimi İntiqam Rəhimov da eyni fikirdədir. Onun fikrincə, futboldakı çatışmazlığı aradan qaldırmaq üçün müxtəlif vasitələrdən istifadə etmək lazımdır, uşaqlara futbolu elm kimi aşılamaq vacibdir. Bununla yanaşı, uşaqların mənəvi dayağa ehtiyacları var. Bu gün futbol meydançalarımızda kiçik istedadlar məşq etməsi üçün lazım olan bütün şərait var. Onların bəziləri ilə Azərbaycanın çox klubları maraqlanır. Məqsədimiz Naxçıvan futbol ənənələrini davam etdirmək və uşaqları bu idman növünə cəlb etməkdir.

“Darıdağ” uşaq futbol komandasının məşqçisi Şəhriyar Məmmədov isə bizimlə söhbətində bildirdi ki, əsas həvəs uşağın özündə olmalıdır: “Hazırda komandada 50-yə yaxın 2002-2006-cı illər təvəllüdlü uşaqlar məşq edir. Onların əksəriyyəti gələcəyin böyük futbolçusu olmaq potensialına malikdir. Çünki onlar üçün hər bir şərait yaradılıb, məşqlər plana uyğun olaraq aparılır. Sadəcə, uşağın özü qarşısına məqsəd qoymalıdır. Bu mənada, biz də onlara dəstək oluruq. Bu gün muxtar respublikada idman infrastrukturu tam qaydasındadır. Uşaqlara isə bundan yalnız istifadə etmək qalır”.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Mirzəyeva Səkinə Qəmbər qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ələkbərli Gəncəli Zahid oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib: Muxtar Məmmədov
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 628